## *Dərs ili başlandı...*

... Ehtiyac və problemlər içərisində boğulan məktəb doğmalarını ağuşuna aldı. Kasıb valideyn öz uşaqlarının yanında pulsuzluqdan xəcalət çəkdiyi kimi, məktəb də bir az ixtisaslı müəllim yoxluğundan, bir az kitab qıtlığından, bir az təmirsiz otaqlardan, bir az da məktəblilərin əyin-başından utana-utana sentyabrın 1-də minlərlə şagirdinin önündə dayandı.

Müəllimlərsə yetirmələrini sevinc qarışıq qayğı ilə salamladılar. Ehtiyac, dolanışıq, gün-güzəran qayğısı ilə. Maaşı çörək pulunun heç yarısını da ödəməyən müəllimi başqa daha nə qayğılandıra bilər ki?

Şagirdlər də bu gün narahatdırlar. Çoxusunun valideyni hələ çatdırıb çanta, dəftər, qələm... ala bilməyib. Dərslik haqqında isə danışmağa dəyməz.

Bəli, dərslik indi məktəb və bütövlükdə təhsil üçün bir nömrəli problemdir. Şagirdlərin böyük əksəriyyəti məktəbə əliboş – dərsliksiz gəlib. Onlar inanırlar ki, məktəb aşağı siniflərdə pulsuz, yuxarılarda isə nisbətən ucuz qiymətə dərslik verəcək. Əslində isə vəziyyət necədir? Əlaqə saxladığımız təhsil şöbələrində, məktəblərdə "Nə qədər və hansı dərslikləri alıbsınız?" – sualına bircə cavab verildi: "Canım, nə dərslik? İbtidai siniflərin ana dərsliklərindən (II və III siniflər üçün) başqa məktəbə heç nə verilməyib".

Avqust konfransında bu məsələ kəskinliyi ilə qoyuldu. Nazirliyin nümayəndələri isə söz verdilər: "Darıxmayın, bir-iki həftəyə dərslik olacaq". Bu yaxınlarda Bakı Baş Məktəblər İdarəsinin rəisi radio ilə müsahibəsində sevinə-sevinə deyirdi ki, dərslik sarıdan bizdə vəziyyət Rusiyadan yaxşıdır, çünki bizdə şagirdlərin 50 faizini, Rusiyada isə 30 faizini dərsliklə təmin etmək imkanı var. Rəis bu hesablamasında nəyə əsaslanıb, bilmirəm. Ancaq reallıq başqa şeydir. Əvvəla, təhsil nazirinin Milli Məclisdəki çıxışı bu nikbinliyi heçə endirir. Əgər 83 adda dərslikdən 22-si çap olunubsa, əgər Maliyyə Nazirliyi hələ aşağı siniflərin dərslikləri üçün bundan sonra 4 milyard manat ayırmağa söz verirsə... nikbinliyə əsas varmı? Görünür, rəis bu statistikanı çapı nəzərdə tutulan dərsliklərin tirajını şagirdlərin sayına bölməklə aparıb. Həm də nəzərə almaq lazımdır ki, bu 50 faizin neçə faizi gedib məktəblərə çıxır. Möhtəkirlərin əlində cəmlənən dərsliklər neçəyə satılır və əhalinin neçə faizinin dərslikləri "qara bazar"dan almaq imkanı var? İndi küçələrdə nə qədər istəsən, dərslik var. Qiymətləri isə 5 mindən 10 minə qədərdir.

“Əlifba” dərsliyi 14 minə satılır. Məktəbə isə “hələ heç nə verilməyib”. Göründüyü kimi, dərslik sarıdan bizim Rusiyadan qabaqda getməyimizdən məktəb yox, kitab dəllalları daha çox qazanırlar. Şagirdlərimiz isə küçə boyu düzülmüş ala-bəzək dərsliklərin ancaq üzünə baxa bilir və hələ ki dərs ilinə dərsliksiz başlayırlar.

| **“Qara bazar” da dərsliklərin qiymət**i<br>**VII sinif üçün** | |
|---|---|
| Fizika | 7000 |
| Riyaziyyat | 6500 |
| Kimya | 5000 |
| Biologiya | 6000 |
| Türk dili | 5000 |
| Orta əsrlər tarixi | 6000 |
| Musiqi | 8000 |
| İngilis dili | 6000 |
| Zoologiya | 5500 |
| Ədəbiyyat | 5000 |
| **IX sinif üçün** | |
| Fizika | 7000 |
| Riyaziyyat | 5000 |
| Kimya | 5000 |
| İnsan | 8000 |
| Türk dili | 6000 |
| Azərbaycan tarixi | 5000 |
| Rəsmxət | 8000 |
| İngilis dili | 6000 |
| İnsan və cəmiyyət | 5000 |
| Ədəbiyyat | 6000 |
| Qeyd: “Qara bazar”dan alınan bütün dərsliklərə VII sinif şagirdi 85.500 manat, IX sinif şagirdi isə 91.000 manat xərcləməlidir. | |
| **Məktəb ləvazimatı** | |
| Çanta | 50.000 – 130.000 |

| | |
|---|---|
| Dəftər – 12 vərəq | 600 |
| Dəftər – 48 vərəq | 2500 |
| Dəftər – 96 vərəq | 6000 |
| Gündəlik | 3000 |
| Avtoqələm | 6000 – 40.000 |
| Diyircəkli qələm | 400 – 700 |
| Xətkeş | 1000 – 4500 |
| Flomaster | 2000 – 7000 |
| Mikrokalkulyator | 8000 |
| Qovluq | 1500 |
| Yapışqan | 1000-5000 |
| Yazıpozan | 400 – 1200 |

Yeni dərs ilində məktəb üçün həlli müşkül problemlərdən biri də ixtisaslı müəllim qıtlığıdır. Bu, bir-iki il əvvəl başlayan müəllim axını (əlbəttə, məktəbə yox, məktəbdən) ilə bağlıdır. Ən çox da ibtidai sinif, bədən tərbiyəsi, riyaziyyat müəllimləri çatışmır. Təsəvvür edin ki, sentyabrın ilk günlərində ibtidai sinif şagirdləri müəllimsiz keçirlər. İlk günün təəssüratı isə daha güclü olur... Bakının hətta mərkəzində yerləşən məktəblərin birində dedilər ki, riyaziyyat müəllimləri yoxdur. Müəllim çatışmazlığı barədə məktəb təhsil şöbəsinə, şöbə də nazirliyə tələbnamə göndərməklə işini bitmiş hesab edir. Nə olar? Dərsliyi olmayan şagirdə hələlik heç müəllim də lazım deyil...

Əvvəllər hami təşkilatların və ya dövlətin hesabına məktəblər təmir edilib, yeni dərs ilinə hazırlanardı. İndi hər ikis öz başınanın hayındadır. Təmir məsələsi də buraxılıb şagirdlərin öhdələrinə, “Fərasətli” sinif rəhbəri hələ aprel-may aylarında şagirdlərdən pul yığıb sinif otağını onların özlərinə ala-babat təmir etdirir. Məncə, məktəbi bu yolla dərs ilinə hazırlamaq şagird və müəllim şəxsiyyətini alçatmaqdan başqa bir şey deyil: imkansız şagirdlər yoldaşları yanında xəcil olur, sinif rəhbəri isə nüfuzunu və dəyərini itirir. Əzizbəyov rayon Təhsil Şöbəsinin müdiri İlham müəllim dedi ki, biz təmir işində həm dövlətin (rayonda 31 məktəbdən 5-ni dövlət təmir edib), həm hami təşkilatların, həm də xeyriyyəçilərin gücündən istifadə edirik, əlimiz hər yerdən üzüləndə isə şagirdləri yox, birbaşa valideynləri işə cəlb edirik. Nə olar, pis üsul deyil... Ancaq bütün yayı əlini əli üstə qoyub, şagirdlərini “köhnə hamam, köhnə tas” vəziyyətində qarşılayan məktəblər də

çoxdur.

Hə, məktəbli dost! Dərs ilinin ilk günündə sənə dərs deyəsi müəllimini tapa bilmədin. O, dolanışıq dalınca çıxıb “tolkuçkaya” gedib. Çantan da boşdur, böyük-böyük əmilərin vəd etdiyi dərsliklərini hələ sənə verməyiblər. Sinif otağın isə necə qoyub getmişdin, eləcədir, yayda sənsizlikdən bir az da solub-saralıb. Eybi yox, səbr elə! Axı sən səbrli millətin övladısan...

***Akif MƏMMƏDOV***

***Azadlıq qəzeti, 2 sentyabr 1995***